# Xisləti dəyişməyən düşmən

2020-ci il 10 noyabr tarixində imzalanan müqavilə, dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini bir daha dünyaya sübut etdi.

Azərbaycan, Rusiya və Ermənistan arasında bağlanan bu müqavilədə torpaqlarımızın bir güllə belə atılmadan qaytarılması qeyd olunur.

Ön cəbhədə ordumuz, masada isə prezidentimiz öz gücünü göstərdi. Cənab prezident, İlham Əliyevin dili ilə desək, «Dəmir yumruqla» düşmənin başını əzdik.

Müqaviləyə əsasən, 15 noyabr 2020-ci il tarixinədək Kəlbəcər rayonu, 20 noyabr tarixinədək Ağdam rayonu, 1 dekabr tarixinədək isə Laçın rayonu Azərbaycana təhvil veriləcəkdir.

Keçmişə, yəni, I Qarabağ müharibəsinin tarixinə nəzər saldıqda görərik ki, düşmən Azərbaycan xalqını torpaqlarımızdan hansı işgəncələr ilə qovub.

Bu gün, yəni, II Qarabağ müharibəsinin nəticəsinə nəzər salaq. Düşmən torpaqlarımızdan çıxır. Yəqinki, "çıxır" və "qovub" sözləri arasındakı fərq hiss olunur.

Biz torpaqlarımızdan qovulduq. Zorla... İşgəncə ilə... Oradan qovulan xalqımız bir çöpünü belə götürə bilmədi. Bu gün bizim düşmənə etdiyimiz humanistliyi onlar bizə etmədi. Bizim xalqımız torpaqları tərk edərkən evlərini yandırmadı. Bir gün qayıdacağıq ümidi ilə evinin açarlarını götürən xalq bu gün evinin necə yerlə-yeksan edildiyini gördü. Kəlbəcəri, Ağdamı, Laçını təhvil verən düşmən balaca bir çöpünü belə özü ilə aparır. Əli, ayağı yalın vəziyyətdə gecə ilə meşələrə qaçmırlar. Qızları, qadınları əsir düşməsin deyə, özlərini öldürmür. Lakin bunların qarşısında Azərbaycan ordusuna "sağ olun" demələri lazım ikən, onlar əşyalarını yığıb aparmaqla qalmır, bizim torpaqlarımızda bizə ziyan vurmağa çalışır.

Onlar bu torpaqlardan çıxarkən evləri yandırır, təbiətə ziyan vurur, ağacları belə kəsib özləri ilə aparırlar. İllərdir xisləti dəyişməyən düşmənin bu gündə dəyişmədiyinin yenidən şahidi oluruq.

Hələ də məğlubiyyəti həzm edə bilməyən düşmən artıq qəzəbini kimlərin üstünə tökəcəyini bilmir.

Düşmən hələ də Azərbaycanın gücü qarşısında, aciz və elə özünə yaraşan formada da hərəkət edir.

Siz dağıdın! Siz yandırın! Bu onsuz da sizin son çırpınışlarınız və ömürlük məğlubiyyətinizdir.

Biz geri dönürük. Sizin dağıdıb, yandırıb çıxdığınız yerləri tikib-qurmağa, kəsib apardığınız ağacların yerində isə yenilərini əkməyə gəlirik. Biz, bizim olan torpaqlarımıza geri dönürük!

**İLAHƏ.**

# Qalib ordunun qazisi

Torpağımızın hər qarışı bizim üçün müqəddəsdir.

Bizlər Qarabağı görmədən sevdik. Çünki, bizə böyüklərimiz vətəni sevməyi öyrədib və bu gün böyüklərimizin bizlərə təbliğ etdiyi vətənə sevginin nəticəsidir ki, o torpaqları görməyən oğullarımız orada qəhrəmancasına vuruşur. Qarabağ vətəni görmədən sevib döyüşən igid oğullarımız sayəsində azad olundu, Qarabağ uğrunda şəhidlərimiz oldu. Qazilərimiz oldu. Hər bölgədən, dinindən,mənsubiyyətindən asılı olmayaraq Azərbaycanda yaşayan bu torpağı sevənlər qəhrəmancasına Qarabağ uğrunda döyüşdü.

Hər bölgədən qazilərimiz, şəhidlərimiz olduğu kimi, Qəbələnin də II Qarabağ savaşında qazi və şəhidləri oldu.

Qəbələnin Vəndam qəsəbəsinin igid qazilərindən olan Muradov Turan Xudat oğlu II Qarabağ savaşının iştirakçısı olmuş və qazi adını almışdır. Qarabağ savaşında nə az, nə çox 2 dəfə yaralanmış bu 19 yaşlı igidimizin atası da I Qarabağ müharibəsinin iştirakçısı olmuş və yaralanmışdır.



İgid qazimiz 1-ci dəfə yaralanmasına baxmayaraq, müalicə alaraq yenidən döyüş bölgəsinə qayıdıb və cəbhənin ən qızğın döyüş gedən nöqtələrində qəhrəmanlıqla, şücaətlə döyüşüb.

Muradov Turan 2-ci dəfə döyüş bölgəsində yenidən yaralanır. Təəssüflər olsun ki, mənfur düşmənin amansız zərbəsinə yenidən tuş gələn qazimiz bu dəfə ağır yaralanır. O dərəcədə ağır yaralanır ki,öz dili ilə desək, "Şəhid olacağımı zənn edib kəlmeyi şəhadət gətirdim".

Qazimiz şükürlər olsun ki, uzun müddətli müalicədən sonra evinə gətirilir. Müalicədən əvvəl Turanın 24 qəlpə aldığı məlum olmuşdu. Lakin onun bədənində hələ də çıxarılmamış qalan 14 qəlpə var. Çox təəssüf ki, bu qəlpələrin çıxarılması üçün hələ uzun bir müddət gözləmək lazım olacaq...

2 bacının bir qardaşı olan Turan həm də evin böyük övladıdır. Biz bu gün qazilərimizə, şəhidlərimizə borcluyuq. Biz rahat yaşayaq deyə öz gələcəklərini, canlarını fəda edən bu igidlərimizə həm maddi, həm də mənəvi cəhətdən hər zaman dəstək olmalıyıq. Biz sənə və bütün igid qazilərimizə, şəhidlərimizə nə qədər təşəkkür etsək azdır. Turan Muradov, biz sizlərlə fəxr edirik!

**İlahə RƏHİMOVA,**
**Vəndam qəsəbəsi.**

# Qazilər

## Torpağın hər qarışı vətəndir

İlk görüşümüzdən hiss etdim ki, qazidir, özü də "qocaman" qazi. Yerişindən, görünüşündən... Sonra isə söhbətlərindən... Həqiqətən qocaman Qarabağ döyüşçüsü, birinci Qarabağ müharibəsi əlili idi.

Oğuz rayonunun Xaçmaz kəndində doğulub boya-başa çatmışdır. Bir müddət Mingəçevir şəhərində yaşamış, 1982-ci ildən Qəbələyə gəlmiş, Qaş sahəsində üzümçülükdə işləmişdir. Elə o vaxtdan etibarən ailəsi ilə birgə qədim Qəbələ torpağında məskunlaşmışdır. Elinə bağlı bir insandır,zəhmətkeş, vətənpərvər. Vətən, torpaq dedikdə, elə pafosla danışdı ki... Ona sual verdim ki, insanın doğulduğu obadan başlanır Vətən, bəs siz niyə yaxın məsafə olsa da Oğuzu aşıb, Qəbələdə yaşayırsınız? Haqqında söhbət açacağımız Nəsibov Əsgər dedi ki, hansısa xoş bir rüzgar atdı məni və ailəmi bu səmtə. Qəbələdə tanış bir nəfər "Qaş"da iş olduğunu dedi və məni işə dəvət etdi. Ailəmi dolandırmaq üçün şans bildim və buna görə də, bu torpağa gəldim.

## «Qoca» əsgər

Birinci Qarabağ müharibəsi ərəfəsində Əsgər Nəsibov döyüş bölgəsinə can atırdı. Erməni işğalçılarının törətdikləri vəhşiliklər, faciələr onun qəlbini ağrıdırdı. Mənfur ermənilərə qarşı nifrəti, qəzəbi gündən-günə artırdı. Ancaq 5 uşaqla birgə həyat yoldaşını da tək qoymaq onu çox düşündürürdü...

1991-ci ilin yanvar ayında jurnalist Salatın Əsgərovanın şəhidliyinin il dönümü haqqında televiziyada verilişə baxdıqdan sonra qəti qərara gəldi ki, döyüş bögəsinə mütləq gedəcək: Azərbaycan qadını bu müharibədə qorxmadan, fədakarcasına iştirak etmişsə nədən mən arxa cəbhədə qalım?! Anım gününün səhəri rayon polis şöbəsinə gələrək könüllü olaraq cəbhə bölgəsinə göndərilməsini xahiş etdi. 40 yaşında, sıravi, könüllü "qoca" əsgər kimi, 1991-ci ilin yanvar ayında yenidən əsgər oldu...

## Döyüşçünün yaşı bilinməz

1991-ci ilin yanvar ayından Cəbrayıl rayonunun Daşbaşı, Sur,



Banazur, Zamsur, Pirəcə kəndlərində gedən döyüşlərdə iştirak edir.

1992-ci ilin iyun ayının 15-i axşamı Əsgəran rayonunun Pircəmal kəndində gedən döyüşlərdə Əsgər Nəsibov yaralanır. Ağdam rayonunun səhra qospitalında bir gün qalıb ilk tibbi yardımı aldıqdan sora onu Bakıya, Musa Nağıyev adına xəstəxanaya göndərirlər. Bir ay müalicə aldıqdan sonra Qəbələdəki xəstəxanaya köçürülür. Yaraları sağalandan sonra 1992-ci ilin noyabr ayında yenidən cəbhə bölgəsinə çağırışla gedir. Mingəçevirdə üç gün qaldıqdan sonra Şəmkir rayonunun Seyfəlli kəndinə göndərilir. Buradakı 14 batalyonla birgə təlimlərdə iştirak edir. Sonra Ağdamla Əsgəran arasındakı Fərrux yüksəkliyində döyüşlərdə iştirak edir.

Döyüş bölgəsindən döyüşçü dostları xeyli uzaqlaşmışdı. Geridə cavan bir əsgərlə yoldaşlarının arxasınca gedən zaman yaralı inilitisi eşidən Əsgər Nəsibov o səmtə getdikdə komandirləri İlqar Əliyevi (əslən Qubadlı, Əfqanıstan döyüşçüsü olmuş, polkovnik-leytenant) yaralı halda görür və onu Fərrux dağından aşağı düşürürlər. Cinni kəndindən çətinliklə də olsa yaralını maşın tapıb Mahruzlu qospitalına göndərirlər...

İlqar Əliyev sağaldıqdan sonra yenidən döyüşlərdə iştirak etmişdir. Hazırda İ. Əliyev Quba rayonunda yaşayır və Əsgər kişi ilə əlaqə saxlayır.

## Tanrım ölüm yazmayırsa...

Əsgər Nəsibov Ağdamın Xındırıstan kəndinə gəlir və 1993-cü ilin fevral ayında Ağdərədə, Seyfəlli kəndində ağır döyüşlərdə iştirak edir. Ağdərənin Mehmanə (Dovşanlı) kəndindəki döyüşdə qalın qarda yüksəklikdən uçquna düşərək ağır yaralanır. Onu çox çətinliklə Bərdə rayonuna gətirirlər. Əsgərin qardaşları onu əvvəlcə Qəbələ rayonuna gətirirlər, daha sonra Gəncə şəhərinə apararaq müalicə etdirirlər.

Həqiqətən də, əsgərin, döyüşçünün yaşı doğulduğu tarixlə deyil, döyüş əzmi ilə ölçülərsə daha inandırıcı olar.

Artıq Əsgər kişi ikinci dərəcəli əlildir. İştirak etdiyi döyüşlərin səhhətində o qədər nişanələri var ki... Özünün dediyi kimi, o boyda yüksəklikdən «uçsam» da Tanrı mənə ölüm yazmayıbmış. Ancaq «sınıq-sökük» cismimlə cismən yaşayıram.

## Qırğınlıq

Qazi dedi ki: bu ilin iyul hadisələrində mən də müharibə bölgələrinə getmək, içğalçılardan yarımçıq qalmış qisaslarımı almaq istədim. Rayon hərbi komissarlığında isə mənə dedilər ki, bu yaşında necə döyüşəcəksən? Həm də bu səhhətinlə döyüşlərdə iştirak edə bilməzsən. Düzü çox qırıldım. Hiss etdim ki, xəstəlikdən öncə yaşım imkan vermir, demək yaşlanmışam. Ancaq əsgərlərə qulluq edərəm,-dedim. Ancaq hərbi komissarlıqdan mənə dedilər ki, "narahat olma, oğlun Ramin hərbi komissarlıqda olmuşdur, döyüşə o gedəcək"...

## Qazi oğlu qazi

Əsgər kişinin üç oğul balası var. Hər üçü əsgəri xidmətdə olmuşdur. Vüqar da, Ələsgər də milli ordunun əsgərləri olmuşlar. Üçüncü oğlu Raminin 33 yaşı var, 2005-2007-ci illərdə əsgəri xidmət borcunu yerinə yetirib, pulemyotçudur. 2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı əks-hü-



cum başlayanda qismən səfərbərlik elan edən kimi Ramin könüllü olaraq cəbhə bölgəsinə getdi. Polad Həşimovun ölümü bu ailəyə də çox acı təsir etmişdir. Onun qisasını almaq, torpaqlarımızı azad etmək Əsgər kişinin də, Raminin də ən başlıca arzusu idi. Qocaman qazimiz dedi ki, igid şəhid generalımız Polad Həşimovun böyüdülmüş şəklini evimdə saxlayıram.

Ramin əvvəl Mingəçevir şəhərinə göndərilir və bir müddət təlim keçdikdən sonra Murovdağa göndərilir. Ancaq bildiyimiz kimi, döyüşçünün vahid məkanı olmur. Ramin də Qubadlıda, Zəngilan rayonlarında gedən döyüşlərdə iştirak etmişdir. Hazırda Zəngilan rayonunundadır.

Ramin bu günün qazisidir. Qalib bir ölkənin qalib bir döyüşçüsü. Bu vətənpərvərlik hissi, torpaq sevgisi, qorxmazlıq, döyüş əzmi, özünə, ordusuna, ən başlıcası komandanına inam əlbəttə, ona atasından keçmə xislətdir. Əsgər Nəsibovla söhbət zamanı bu qədər vətən sevgisi, döyüş əzmi, qorxmazlıq olduğu halda niyə birinci Qarabağ müharibəsində torpaqlarımızı tam mənada qoruya bilmədiniz, deyə, soruşdum. Onun gözləri yaşardı, üzünə sanki kölgə qondu. Dedi ki, "bizim dövrdə də əsgərlərin döyüş əzmi yüksək idi, qələbəyə inamla mərdliklə döyüşürdük. Ancaq pərakəndə halda. "Komanda" verənlər çox idi, silahsursat isə çatışmırdı, əsgərlərə qayğı indiki kimi deyildi. Hərbi savadsızlıq var idi. Bəzən hiss olunmadan döyüş planlarımız aşkar olur və bu zaman döyüşlərimiz istədiyimiz kimi alınmırdı. Bu isə yerli əhalinin bəzi işğalçılarla yaxın yaşaması, qohumluq əlaqələrinin olmasından irəli gəlirdi. Ancaq bu gün Müzəffər Ordumuz var, insanların dünyaya baxışı da dəyişib. Ali Baş Komandanımızın güclü və düzgün siyasəti, illərlə apardığı ordu quruculuğu, yeni növ silahlar və hərbi kadrların olması bizim vətənpərvər oğullarımızın şücaəti, ən əsası xalqla ordunun yekdilliyi Azərbaycanımıza yeni və böyük tarix yazdı. Bu yeni tarixə mənim olmasa da, övladımın da adı, əməli düşdü. Nə qədər güclü silahlar olsa da, qələbə igid və qorxmaz oğulların qanı, canı bahasına qazanıldı".

Əlbəttə Əsgər Nəsibovun müharibə veteranı, döyüş anlarını yaşayan bir insan kimi qəlbi doludur bu mövzuda. Ancaq onun sözlərindəki ən başlıca gerçəklik odur ki, həqiqətən də torpaqlarımız nə qədər güclü silah-sursatlarımız olsa da, Ali Baş Komandanımızın düzgün siyasəti, xalqla birgə olması və əsgərlərimizin gücü, xüsusilə, Şuşa şəhəri əlbəyaxa döyüşlə, mübarizə ilə əldə olundu. Qələbə milli vətənpərvər gənc vətəndaşların hünəri ilə qazanıldı. Müharibə qansız-qadasız olmur, Allah şəhid balalarımıza rəhmət eləsin! Qazilərimizə isə sağlam ömür arzulayırıq. O cümlədən qazi oğlu qazi Ramin balaya da !

**Afət SÜLEYMANZADƏ,**
**"Qəbələ"**